**UOT 801.73**
**https://doi.org/10.59849/2218-4783.2024.2.222**

**SƏBUHİ İBRAHİMOV**

# "KƏŞKÜLÜN-NUR" ƏSƏRİNDƏ MÖCÜZƏ VƏ KƏRAMƏTLƏR HAQQINDA RƏVAYƏTLƏR

*Məqalədə Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-Nur" əsərində möcüzə və kəramətlər haqqında rəvayətlərin olması, onların müxtəlif xüsusiyyətləri haqqında müəyyən məlumatlar verilmiş və hər bir hadisənin öz əhəmiyyəti barədə təhlillər aparılmışdır. Aparılmış araşdırmalar zamanı məlum olmuşdur ki, müəllifin qələmə aldığı əsərdə nəinki ədəbi-bədii xüsusiyyətlər, o cümlədən fəlsəfi və möcüzəvi xarakterlər olmaqla yanaşı İlahi kəramətlər öz əksini tapmışdır. Bu baxımdan yanaşdığımız mövzu məhz həmin möcüzəvi rəvayətlərin əyani göstəricisidir. Əsər öz mahiyyətinə görə zəngin bir sahəni əhatə edir və dərin mənalı obrazları özündə ehtiva edir.*

*Araşdırmalarda o da müəyyən olmuşdur ki, H.M.Naxçıvaninin "Kəşkülün-Nur" əsərində verilən hər bir rəvayət və ya hədis öz fəlsəfi aspektinə görə seçilir. Belə ki, "Kəşkülün-Nur" əsərində özünə yer alan fəlsəfi xüsusiyyətlər, müəyyən möcüzəvi və kəramətli amillər nəinki bu günümüz üçün, həmçinin gələcək nəslin mənəvi-ruhi sferası baxımından əhəmiyyətlidir. Aparılan araşdırmalardan məlum olur ki, Hacı Molla Məhəmməd Naxçıvaninin bu əsəri həm də mətnşünaslıq baxımından qiymətlidir.*

**Açar sözlər:** *Hacı Molla Məhəmməd Naxçıvani, əsər, möcüzə, kəramət, tərbiyə, əlyazma.*

**Giriş.** Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-Nur" əsərində möcüzə və kəramətlərin verilməsi Şərq fəlsəfi fikrinin dərinliklərini özündə ehtiva edir. Möcüzə və kəramətlər haqqında rəvayətlərin olması fikri hələ VII əsrdə Uca Allah tərəfindən nazil olmuş Qurani-Kərimdə də öz əksini tapmışdır. Möcüzə, Peyğəmbər olduğunu irəli sürən kimsənin əlində doğruluğunu sübut etmək üçün Allah tərəfindən yaradılan fövqəladə hadisədir. Möcüzə, lüğətdə "bir şeyə güc çatdıra bilməmək" mənasındakı acizlik kökündən törəyən "mucizin" (aciz buraxan) ad şəklidir. "Qurani-Kərim"də [1] peyğəmbərlərin Allah tərəfindən göndərilmiş həqiqi elçilər olduğunu sübut edən fövqəladə hadisələr çox vaxt ayə (ayat) sözü ilə ifadə edilmişdir. Həzrəti Saleh peyğəmbərin dişi dəvəsi [Əraf surəsi – 73], Həzrəti Musa əleyhissalamın "əsa"sı (çəliyi) ilə parıltılı əli [Əraf surəsi – 106-108; Hud surəsi – 96; Qisas surəsi – 31-32-33], Həzrəti İsa əleyhissalamın göstərdiyi fövqəladə hadisələr [Ali-İmran surəsi – 49-50] və inkarçıların peyğəmbərlərdən möcüzə tələbləri bu söz ilə izah edilmişdir. Fəlsəfi baxımdan isə kəlam termini olaraq möcüzə sözünün nə vaxt istifadə edilməyə başlandığı qəti şəkildə bilinməməklə birlikdə bu terminə X əsrdən etibarən rast gəlinməkdədir. "Əşari ilə Matüridinin möcüzə sözünü bilvasitə də olsa istifadə etmələri bunu sübut etməkdədir" [3, s. 286].

**1. Kəlamçıların möcüzə tərifində fərqlilikləri.** Fəlsəfə elmində kəlamçıların möcüzə tərifində bəzi fərqlilikləri gözə dəyir. Matüridi möcüzəni "peyğəmbərin əlində ortaya çıxan və bənzəri təhsil yoluyla meydana gətirilə bilməyən hadisə" deyə tərif vermişdir. Qadir Əbdül-Cabbara görə isə "Allah tərəfindən göndərilən, peyğəmbərlik iddiasında olan adamın doğruluğunu göstərməyi məqsəd qoyan və xüsusiyyətləri baxımından insanların bənzərini gətirməkdən aciz buraxan fövqəladə hadisədir. Nəsəfi də möcüzənin meydan oxuma (təhaddi) ilə birlikdə "...dünyada baş verən fövqəladə bir hadisə olması xüsusiyyətini diqqətə çəkir" [4, s. 350].

Bu baxımdan H.M.Naxçıvaninin "Kəşkülün-Nur" əsərində verilən sevimli peyğəmbərimiz Həzrəti Məhəmməd əleyhissalamın möcüzə və kəramətləri haqqındakı rəvayətləri də fəlsəfi aspektdən çox böyük əhəmiyyət kəsb edir.

Ümumiyyətlə isə bu haqda araşdırmalar aparan XV əsrin tanınmış sufi və təsəvvüf alimi Baba Nemətullah Naxçıvani belə hesab edir ki, kəramət ancaq İmamlardan zühur edən fövqəladə haldır. "Kəramət, eynilə möcüzə kimi təbiət qanunlarıyla açıqlana bilməyən fövqəladə hal olub mahiyyəti etibarilə möcüzədən fərqli deyil. Aralarındakı fərq meydanda inkişaf etmək şəkliylə əlaqədardır. Möcüzə peyğəmbərlərdən, kəramət tam olaraq ona bağlı olan İmamlardan zühur edər" [2, s. 27].

**2**. **Araşdırmalarda möcüzə və kəramətlər haqqında**. Möcüzə kimi kəramətin də yaradıcısı və həqiqi sahibi Allahdır. Sufilər kəraməti Allah Təalanın İmamlara bir ikramı və lütfü olaraq qəbul etmişlər, Allahın özünə itaət edən və Ona yaxınlaşmağa çalışan İmamlara bunu lütf edəcəyini söyləmişlər. Kəlam və əqaid alimləri isə kəramət məsələsini möcüzə kimi etiqadı bir mövzu şəklində qiymətləndirmişlər. Mütəsəvviflər isə yaşadıqları mənəvi həyatla əlaqədar İlahi bir lütf olaraq əsərlərində göstərməklə bərabər bunun imkan və hadisəsini əqli dəlillərlə isbat mövzusu üzərində çox dayanmamışlar. VIII əsrdən etibarən kəramət sözü istifadə edilməyə başlanmışdır. Kəramət termininin sonrakı dövrlərdə ortaya çıxması, bu halların Quran və hədislərdə tapılmadığı mənası yersizdir. Çünki Qurani-Kərimdə adı çəkilən Bülqeyis kimi bir qadın padşahın Səba məlikanəsinin taxtını kitabdan bir qədər elmi olan birisi, bir anda Həzrəti Süleymanın yanına gətirməsi [Nəml surəsi – 40] və qarışqaların bir-birlərinə xəbər verməłəri ki, yuvanıza girin Süleyman və onun ordusu sizi əzməsinlər [Nəml surəsi – 18], Həzrəti Məryəmə Allah qatından ruzi gəlməsi [Ali-İmran surəsi – 37; Məryam surəsi – 25], Əshabi-Kəhfin itləriylə birlikdə bir mağarada uzun müddət yatıb sağ qalmaları [Kəhf surəsi – 9-26], Həzrəti Musanın yenidən öz anasına körpəsinin geri verilməsi [Qisas surəsi – 7-13] və s. Qurani-Kərimdə keçən kəramət nümunələri olaraq verilmişdir. Bu ayələrdə haqqında danışılan kəslər peyğəmbər olmamasına baxmayaraq özlərindən fövqəladə hallar zühur etmişdir.

Həmçinin Qurani-Kərimdə bu möcüzələrin elmlə, görməklə və həqiqətə çatmaqla tərənnüm olunması verilmişdir [Təkasur surəsi – 1-8]. Belə ki, başqa mənbələrdə də "Vacibul-vücud" haqqındakı məlumatların ancaq lədünni elmlə əldə ediləcəyi bildirilir. Bu da, Allah vergisi, könülə ilhamın atılması, ürəyə kəşfin gəlməsi, "Elməl-yəqin", "Eynəl- yəqin" və "Həqqəl-yəqin"nin olması ilə öz məntiqi anlamını verir. "Elməl-yəqin" (Elməl-yəqin: Elmi idrakın metod və priyomları ilə hasil olan). "Eynəl-yəqin" (Eynəl-Yəqin: Bir şey haqqında görməklə əldə edilən məlumat) şühud və "Həqqəl-yəqin" (Həqqəl-Yəqin: Bir şeyi şəxsən yaşamaq surətiylə əldə edilən məlumat) müşahidələri ilə olar iddiasını qeyd edir.

Bu amillər XV əsrin görkəmli nümayəndəsi Baba Nemətullah Naxçıvaninin tədqiqatlarında da araşdırılmışdır. O, filosof və kəlamçılara üzün tutaraq deyirdi: "Onlar həqiqətən tədəyyün (bir dinə tabe olmaq) və inqiyat (boyun əymə, itaət etmə, ram olma) əhlindən ola bilməzlər, çünki, tədəyyün bəşəri düşüncəsizlikdən və füzuli (həddini bilməyən, özünə aid olmayan işlərə qarışan; yersiz danışan; uzunçu, naqqal) ağlın gətirdiyindən dinin həqiqətinə dönməkdir. Heraklitdə möcüzə ilə dəstəklənilmiş peyğəmbərlik mərtəbələri və kəramətə varmış mütləq olan vilayət mərtəbəsinin zühuru ağlın tələb etdiyinin xilafınadır. Əgər bunlar əqləsığar və ağılla ölçüləsi olsaydı millətlər və ümmətlər möcüzəni qəbul etməyəcəydilər. Ağılla bilmədikləri üçün ondan aciz qalırlar. Məsələn; ölünün dirildilməsi, korun görməsi, xəstənin yaxşılaşması, əsanın ilana çevrilməsi, alovlu atəşin soyuq və sakit olması, əsanın danışması, ayın yarılması və bunun xaricində olan möcüzələrlə vilayət sahibi kəslərin kəramətləri necə bir şeydir? Bunlar ağlın qəbul etdiyi şeylərdirmi? Göründüyü kimi kəlamçılarda

ağıllarının ətəyinə yapışıb özlərini gerçək hakimlərin müqabili və mübarizi vəziyyətinə gətirdilər. Günaha düşdülər, təriqətlərə ayrıldılar. Bir-birlərini təkfir (birisinin sözünə və işinə əsasən onun kafirliyi haqqında hökm etmə,) və təlqin (öyrətmə, beyninə yeritmə; öyüd, nəsihət; hipnoz; müsəlmanlarda: ölü basdırılan zaman qəbir üstündə oxunan dualardan biri.) edən hizblərə (tayfa, zümrə; hissə, qisim; partiya) ayrıldılar" [6, s. 21].

Orta əsrlərdən başlayaraq Naxçıvanda yaranan ədəbi-fəlsəfi məktəblərdə bu məzmunlu motivlərə rast gəlinir. Bu da Naxçıvanın mənəvi-mədəni irsinə dair qədim əlyazmaların fəlsəfi cəhətdən işlənməsi üçün böyük marağa səbəb olur. Bütün bu amillər Azərbaycan və onun ayrılmaz parçası olan Naxçıvanın elm aləminə fəlsəfi baxımdan tanıdılması, zəngin keçmişə malik olan xalqımızın tarixinin dərin qatlarında gizlənən maddi-mənəvi dəyərlərinin təbliği istiqamətində atılan mühüm bir addımdır. Belə ki, tarixdə baş verən müəyyən fəlsəfi aspektlərə və tərbiyəvi əhəmiyyəti olan əsərlərə dərindən nəzər saldıqda görürsən ki, tarixin fəlsəfəsi və tərbiyəvi xüsusiyyətləri nə qədər dərin və hərtərəflidir. Bunun üçün isə yazılı abidələrin tədqiqi ilə bağlı elmi axtarışları genişləndirmək tələb olunur.

**3. "Kəşkülün-Nur" kitabında möcüzə və kəramətlər haqqında.** H.M.Naxçıvaninin "Kəşkülün-Nur" kitabında verilən sevimli Peyğəmbərimizin Ümmi Məbədin xeyməsində baş verən möcüzə və kəramətləri araşdırmanın aktuallığını artıran səhnələrdən biridir. Belə ki, müəllif "Məxzən-ül-Bəka" kitabından bir Hind qızının dilindən rəvayət edərək yazır: "Vaxtı ki, Peyğəmbər əleyhissalam Məkkeyi-Müəzzəmədən Mədineyi-Münəvvərəyə hicrət buyururdu öz əsbahi ilə, bu zaman mənim xalam Ümmi Məbədin xeyməsinə təşrif gətirib nüzul buyurdular. Bəs o böyük hörmətli şəxs bir qədər süd xahiş eylədi.

Ümmi Məbəd ərz eylədi: Cəmi gusfəndlərimi (qoyunlarımın hamısını) səhraya aparıblar, məgər bir zəif qoyun ki, qüvvət və qüdrəti yoxdu səhraya getsin və heç südü də yoxdu xeymədə qoyublar.

Həzrət buyurdu: İzn ver mən onu sağım.

Eylə ki, rüxsət (icazə) aldı, mübarək əlini gusfəndin (qoyunun) döşünə qoydu. O Həzrətin möcüzündən süd bəna eylədi fəvvarə kimi coş edib tökülməyə. Həzrət o qədər sağdı ki, Ümmi Məbədin cəmi zərfləri (qabları) süd ilə mümillu (usandıran, təngə gətirən, artıqlaması ilə) oldu və əshablar süd meyl buyurub bir az yatdılar" [5, s. 313].

Müəllif əsərdə bu möcüzəni verməklə bir daha əsərə yeniliklər gətirmiş olmuşdur. Belə ki, mövzuya fəlsəfi aspektdən yanaşanda görürük ki, bəşər sivilizasiyasının fəxri olan Həzrəti Məhəmməd əleyhissalam tək Qurani-Kərim olmaqla deyil, onun göstərdiyi möcüzələr ümumbəşər qaynaqlarına sanki bir yenilikdir. Adi insan isə bu möcüzələr bərabərliyində acizdir.

İkinci möcüzəni verməklə müəllif bir daha göstərir ki, həyat fəlsəfəsi və onun hikməti nə qədər dərin mənalara malikdir. Müəllif yenə həmin adı çəkilən kitabdan start gətirməklə yazır: "O gün çox şiddətli isti idi. Eylə ki, Həzrət yuxudan bidar oldu su xahiş eylədi. Təcdidivüzu (dəstəmazı təzələmə) edib məzməzə (ağzı yaxalama; qarqara) suyunu bir tikan ağacının dibinə tökdü ki, xeymənin yaxınındaydı. Eylə ki, vüzudan (dəstəmazdan) fariğ oldu, buyurdu ki, bu tikan ağacının çox şəni və ehtiramı olacaq. Sonra Həzrətin əshabi vüzu əmələ gətirdilər. Bəs Həzrət iki rükət namaz qıldı. Ta bu vaxtadək bizim qəbiləmiz vüzui-namaz görməmişdik. Eylə ki, o gün sabah oldu, gördük o tikan ağacı çox ucalıb və böyük ağac olub. Tikanları küllən (tamamilə) tökülüb və çox şaxələri yaş, nəm olub və səbz yarpaqlar açıb və çox böyük meyvələr gətirib. Misli-kübbatu (limon ağacına oxşar tamlı meyvə ağacı) və meyvələrinin rəngindədir. Yarpaqlarının rənginə (rəngarəng) şəbihdir (oxşardır) və bal təamlı ətri verirdi.

Qəsəm olsun Xudavəndi-Aləmə ki, (and olsun Allaha ki,) hər kəs o meyvədən meyl edəndə sir (tox, doymuş) olurdu. Hər susuz meyl edəndə sirab (sudan doymuş, su içib doymuş) olurdu. Hər möhtac pərişan halda olardısa o meyvədən meyl edərdisə zəngin və heç kəsə möhtac olmazdı. Hər naqə (dəvə) və gusfənd (qoyun) və sair heyvanat və bəhayim (heyvanlar) meyl edəndə fərbehi-çaq (kök və sağlam) olub südləri firavan olurdu. O gündən ki, o Həzrət bizim xeyməmizdə nüzuli-iclal (əzəmətin nazil olması) buyurdu, xeyir və bərəkət bizim cəmi qəbiləmizin içində firavan oldu. Mal və dövlət, məvaşiye-heyvanatlarımız (südlü və ətli heyvanlarımız) ziyada (çox) oldu. Güli-kiyah (otların gülü) bizim biladımızda (şəhərimizdə) səccideyi-hesab oldu. Ucuz və firavanlıq hasil olub cəmi fəqirlərimiz ğəni və biehtiyac oldular. O tikan ağacına "şəcərətül-bərəkət" (bərəkətli ağac) ad qoyduq. Bizim ətraflarımızda olan qəbilələrin adamları gəlib o ağacın altında düşüb, o ağacın bərklərindən zəxirə götürüb özləri ilə uzaq səfərlərə gedəndə aparıb təam və susuzluq vaxtında su əvəzinə meyl edib sudan və təamdan biehtiyac olurdular. Hər naxoş bəni-Adəmdən və heyvanatdan ki, ittifaq düşürdü o ağacın bərk meyvəsindən ki, yeyirdi, onun bərəkətindən şəfa tapırdı. Bir müddəti-mədid (uzun bir müddət) bu qərarilən xoşhal və xoşgüzəran varıydıq. O ağacın çox təzə və bərk barlı meyvəsi biəndazə (ölçüsüz) varıydı. Tainki, bir gecə yatdıq sübh ki, bidar olduq, gördük o ağacın cəmi meyvələri tökülüb və yarpaqları saralıb. Cəmi əhli-qəbilə mütəfəkkiri-məbhut (mat qalmaq, heyran olmaq) və delgiri-pərişan (ürək sıxıntısı) hali-xofnak (qorxulu halda) olduq ki, aya nə hadiseyi-əzim üz verib? Bir az zamandan sonra bizə xəbər yetişdi ki, o gün Rəsuli-Xuda səlləllahu əleyhi və aleh dünyayi-fanidən rehlət buyurub. Bəs məlum oldu ki, o ağac Həzrəti Rəsulullahın (s) müsibətində bu hala düşüb. Ondan sonra o ağac yenə meyvə gətirirdi, amma meyvələri göyçək, təamı və dadı (dadı tamı) azalmışdı. Ta otuz il bir müddət bu minval ilə varıydı. Bir gün mülahizə eylədik, gördük həmçinin ağacın cəmi meyvələri tökülüb və meyvə əvəzinə tikan gətirib. Budaqları pormüjdələnib və yarpaqları əfsərdələnib (taclanıb, əklil) yenə xofa düşüb artıq pərişanlıq bu səbəbə bizə üz verdi. Bir o qədər keçmədi ki, xəbər gəldi ki, Həzrəti Əli Əmirəl-Möminin əleyhissalam ibn Mülcəm Muradi məlunun zərbəti ilə şəhid olub. Ondan sonra daxi (dəxi) bu ağac əslən meyvə vermədi. Lakin bizlər və bizim ətrafımızda olan qəbilələr onun yarpaqları ilə nəfe-bərdar (mənfəət görmək, faydalanmaq) olurduq və naxoşlarımız onun yarpaqları ilə şəfa tapırdılar. Bir müddət mütəmadi bu halətlə varıydı. Tainki, bir gün zöhr vaxtından bir az keçmiş gördük o ağacın yarpaqlarından qətrə-qətrə qan tökülür və şaxələrindən su kimi qan axır. Bu vəziyyəti görcək artıq ürəyimiz narahat oldu və qəmgin olduq. Tainki, gecə oldu və zülməti-şəb (gecənin zülməti) Aləmi tutdu. Gördük o ağacın altından qəribə və əcibə sədalar gəlir. Nohə və nalə ağlaşmaq Aləmi doldurdu. Nohə və nalələrin bəzisini dərk edirdik və bəzisini dərk etmirdik. O cümlədən belə deyirdilər:

Ey Peyğəmbər oğlu!
Ey Vəsi oğlu!
Ey böyükraq Ağaların bəqiyyəsinin oğlu!
Ey şəhidin oğlu!
Ey əmisi şəhid olan ki, əmilərin yaxşısı Cəfəri-Təyyardır!
Təəccüb edirik bir qılıncdan ki, sənin bədənivə yetişdi.
Halainki, toz torpaq sənin qanlı üzüvə tökülmüşdü.

Bir neçə gündən sonra ağac qurudu. Bir tənd badi-baran (küləkli yağış) aşkar olub o ağacı dibindən çıxarıb şaxələrini sındırıb havaya pərakəndə eylədi. Bir nəhvilən ki, o ağacdan bir əsər baqi qalmadı. Bir o qədər keçmədi ki, xəbər gəldi İmam Hüseyn əleyhissalamı şəhid edib əhli-beytini Şami-şumə (uğursuz Şama, Dəməşqə) əsir apardılar" [5, s. 313-314].

Əsər demək olar ki, həm tarixi hadisələrlə bağlı olan anları və həm də fəlsəfi aspektlərlə zəngin olan sahələri özündə ehtiva edir. "Kəşkülün-Nur" kitabı bir çox universal sahələri əhatə etməklə yanaşı, elmi-paleoqrafik tədqiqatın filoloji və tekstoloji araşdırılması baxımından da çox əhəmiyyətlidir.

**Nəticə.** Mövzunun məntiqi nəticəsi olaraq qeyd edilən möcüzəvi rəvayətlərdən belə bir qənaətə gəlmək olar ki, sevimli Peyğəmbərimiz ümumbəşəri möcüzələri ilə öz kəramətlərin göstərir və həyatın dəyər-qiymətini məsum insanların yaşam tərzində həyata keçirir. Bu mənada ki, onların həm əxlaqi hərəkət və davranışları ilə, həm də davranışın son dərəcə incə tellərlə bağlı olması prinsipi əsas götürülür. H.M.Naxçıvaninin "Kəşkülün-Nur" əsərində verilən möcüzə və kəramətlər bir daha əsərin fəlsəfi xüsusiyyətləri haqqında zəruri amillərin olduğunu göstərir.

Güman edirik ki, möcüzə və kəramətlər haqqında fəlsəfi aspektlərin yaranması və tərbiyəvi xüsusiyyətlərin daha dolğun əhəmiyyətini dərinləşdirən islam fəlsəfəsi, araşdırılan istiqamətin məntiqi nəticəsini göstərməklə mövzunun nə qədər aktual olduğunu zənginləşdirir. Belə ki, mövzu ilə bağlı verilən rəvayət və hadisələrin məntiqi nəticəsi kimi son olaraq demək olar ki, tədqiq edilən "Kəşkülün-Nur" əsəri Naxçıvan və bütövlükdə Azərbaycan mənəvi-mədəni irsinin tanınmasına imkan verəcək, ədəbiyyat və mədəniyyət tariximizin inkişaf etməsinə öz töhfəsini verəcəkdir.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim / Tərc.: Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: 1992. Azərnəşr. 714 s.
2. İbrahimov S.M. Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi. Naxçıvan: Əcəmi, 2018, 104 s.
3. Mâtürîdî, Kitâbü't-Tevhîd / Nşr. Bekir Topaloğlu – Muhammed Aruçi. Ankara, 1423/2003, 440 s.
4. Halil İbrahim Bulut. Mucize Md., DİA. Ankara, 2005, 322 s.
5. نخجوانی حاج ملا محمّد. کشکول النور.1312 ه.ق. 560ص
6. اجلونی اسماعل ابن محمد. ال لما. لبنان-بیروت. 1417/1988. 176.ص



*AMEA Naxçıvan Bölməsi*
*E-mail: s.ibrahimov71@mail.ru*



**Sabuhi Ibrahimov**


## NARRATIVES OF MIRACLES IN THE WORK OF "KASHKULUN-NUR"


The article examines the narratives of miracles in the work of Haji Molla Muhammad Nakhchivani "Kashkulun-Nur", provides certain information about their various features, and analyzes the importance of each event. During the research, it was found out that the author in his work reflects not only literary and artistic features, including philosophical and miraculous images, but also Divine miracles. From this point of view, the topic we touched upon is a clear indicator of those miraculous narratives. The work, in its essence, covers a wide area and reflects deeply meaningful images. During the research, it was also established that

each narrative or hadith given in "Kashkulun-Nur" by H.M.Nakhchivani was chosen for its philosophical aspect. Thus, the philosophical features, certain miraculous factors included in the work of "Kashkulun-Nur" are important not only for today, but also from the point of view of the spiritual and moral sphere of the future generation. From the conducted research, it is clear that this work of Haji Molla Muhammad Nakhchivani is also valuable from the perspective of textual criticism.

**Keywords:** *Haji Molla Muhammad Nakhchivani, work, miracle, education, manuscript.*

**Сабухи Ибрагимов**

## ПОВЕСТВОВАНИЯ О ЧУДЕСАХ В ПРОИЗВЕДЕНИИ «КАШКУЛЮН-НУР»

В статье рассмотрены повествования о чудесах в произведении Хаджи Моллы Мухаммеда Нахчывани «Кашкулюн-Нур», приводятся определенные сведения об их различных особенностях, проведен анализ важности каждого события. В ходе исследований выяснилось, что автор в своем произведении отражает не только литературно-художественные особенности, в том числе философско-чудотворные образы, но и Божественные чудеса. С этой точки зрения тема, которую мы затронули, является наглядным индикатором тех чудесных повествований. Произведение по своей сути охватывает широкую область и отражает глубоко содержательные образы.

В ходе исследований также установлено, что каждое повествование или хадис, приведенное в «Кашкулюн-Нуре» Х.М.Нахчивани, выбрано по его философскому аспекту. Таким образом, философские особенности, определенные чудесные факторы, которые включены в произведение «Кашкулюн-Нур», важны не только для сегодняшнего дня, но и с точки зрения духовно-нравственной сферы будущего поколения. Из проведенных исследований ясно, что данный труд Гаджи Моллы Мухаммеда Нахчывани ценен и с точки зрения текстологии.

**Ключевые слова:** *Гаджи Молла Мухаммед Нахчывани, труд, чудо, воспитание, рукопись.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 05.09.2024**
**Son variant 02.10.2024**